

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 İYUN 2024-cü il | ÇƏRŞƏNBƏ | № 131 (7889) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



## 26 İyun
## Silahlı Qüvvələr Günüdür

# Qüdrətli ordu: peşəkarlığın, yenilməzliyin zirvəsi

### Tarix

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 106-cı ildönümü tamam olur. Ordumuz bir əsrdən artıq keşməkeşli yol keçib. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradılıb. Qoca Şərqin ilk demokratik hökumətinin ordu yaratması zamanın hökmü idi. Həmin il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, silahlı qüvvələrini yaratmalıdır. 1919-cu ilin sonlarında şəxsi heyəti 25 min nəfər olan Azərbaycan Ordusunun 40 minə çatdırılması nəzərdə tutulurdu. Lakin 1920-ci ilin aprelində sovet hakimiyyəti ADR-i işğal etdikdən sonra Hərbi Nazirlik ləğv olundu, ordu quruculuğu prosesini başa çatdırmaq mümkün olmadı. Uzun illərdən sonra Azərbaycanın dövlət müstəqilliyi ikinci dəfə bərpa olundu. 1991-ci il oktyabrın 9-da Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu tarix hər

Milli ordunun yaradılmasında Azərbaycan müxtəlif təzyiqlərə məruz qalırdı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi. Heç sovet hakimiyyəti dövründə də azərbaycanlılara qarşı hərbi siyasət dəyişmədi. Azərbaycanlılar əsasən tikinti yönümlü hərbi hissələrdə xidmət edirdilər. Bu onların hərb elminə dərindən yiyələnməməsi, müasir silahlarla rəftar etməyi bacaran hərbçilər kimi yetişməməsinə istiqamətlənmişdi. Həmin siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Azərbaycanda hakimiyyətə gəldikdən sonra 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış Hərbi Məktəbin yaradılması haqqında qərar verdi. Ümummilli Lider azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Qeyd edək ki, C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında, Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Silahlı Qüvvələrin Qalib Ali Baş Komandanı İlham Əliyevin səyi nəticəsində bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. 2020-ci ilin 27 sentyabrından 10 noyabra qədər davam edən Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı. 2023-cü ilin sentyabrında Xankəndi və ətraf ərazilərdə keçirilən lokal xarakterli antiterror tədbirləri cəmi 23 saatdan bir qədər artıq çəkdi. Torpaqlarımızdan erməni separatizminin kökü birdəfəlik kəsildi, ərazi bütövlüyü və suverenliyimiz bərpa edildi. Bu tarixi qələbə, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi və rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında göstərdiyi şücaəti ilə qazanıldı. Azərbaycan xalqı öz əzmini, birliyini, gücünü sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu. Biz öz əzəli torpaqlarımıza alnıaçıq, üzüağ, zəfər bayrağı ilə qayıtdıq. 2020-ci il dekabrın 10-da Bakıda qalib ordunun Zəfər paradı keçirildi.

### Müharibə

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yarat-

maq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və ölkəmizin strateji infrastrukturuna zərər vurmaq idi. Ermənistanın gözləmədiyi halda Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi. İlk dəfə olaraq Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın sarsılmaz birliyini, polad kimi əyilməz iradəsini nümayiş etdirdi.

**(davamı 3-cü səhifədə)**

# Qüdrətli ordu: peşəkarlığın, yenilməzliyin zirvəsi



*"Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan otuz ilə yaxın bir müddətdə erməni işğalından əziyyət çəkməsinə baxmayaraq, bütün haqsızlıqlara, ikili standartlara mərdliklə sinə gərdi, qələbəyə qadir olduğunu sübut etdi. Biabırçı şəkildə məğlub olan Ermənistanda isə hələ də böhran hökm sürür, ermənilər bir-birilərini ittiham edir, xain adlandırırlar. Xalqımız qürurla, doğma torpaqlara qayıdışın təntənəsini yaşayır. Qırx dörd günlük müharibə gücümüzü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşdik, ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, işğalçıları torpağımızdan qovdu. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü rəşadət, şərəf günüdür və hər birimiz üçün çox əziz, və doğmadır.

Mənsub olduğu xalqın, gəncliyin gücünü, ləyaqətini, qabiliyyətini, qəhrəmanlığını varlığında yaşadan, doğma yurdu, torpağı uğrunda savaşa atılan, düşməni əzən və məhv edən oğullarla fəxr edirik, polad biləkli igidlərlə həmişə qürur duyuruq. Qarabağa Azərbaycan xalqının birliyi, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Bu tarixi zəfər xalqımızın şərəfini və qürurunu özünə qaytardı. Azərbaycan xalqının tarixinə şəhid qanıyla yazılan 27 sentyabr 2020-ci il həm də bizi qələbəyə aparan yolun başlanğıcı oldu. Müharibənin ilk günləri bir daha göstərdi ki, biz təkcə Ermənistanla döyüşmədik. Şanlı və qəhrəman ordumuzun ildırımsürətli hücumları düşməni və onun havadarlarını ciddi təşvişə saldı. Azərbaycan Prezidenti, sözün əsl mənasında, üç cəbhədə düşmənə qarşı döyüşdü. Ali Baş Komandanın ordusu cəbhədə, özü isə siyasət meydanında, informasiya cəbhəsində erməni təəssübkeşlərinə və dünya ermənilərinə qarşı qətiyyətlə, cəsarətlə, böyük fədakarlıqla mübarizə apardı. Bu gün güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu çox yüksəkdir. Ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və ən müasir hərbi texnikalarla təchiz olunub. Bütün bunlar Azərbaycan Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin yüksək peşəkarlığını, döyüş qabiliyyətini, qəhrəmanlığını, torpaq və bayraq məhəbbətini bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın Ermənistanın işğalı altında qalan yurd yerlərimiz azad edildi, bu savaşda əsgərlərimiz, zabitlərimiz, generallarımız doğma Vətənimiz Azərbaycanın başını uca etdilər. İgidlərimizin döyüş məharəti sayəsində Vətən müharibəsinin ilk günlərindən Ermənistan ordusu, şəxsi heyəti dərin mənəvi-psixoloji sarsıntı içində idi. Azərbaycan ordusunun gücü və qüdrəti onların gözünü qorxutmuşdu. Vətən müharibəsi ilə bağlı təhlillər bir daha onu göstərir ki, Azərbaycanda ilk dəfə olaraq bütün xüsusi təyinatlı birləşmələr aktiv şəkildə iştirak edib. Müharibənin ilk günlərində bir sıra kəndləri və strateji körpüləri işğaldan azad etdikdən sonra Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və 23 oktyabrda Laçın Dəhlizinə doğru irəliləməyə başladı. Laçın dəhlizi Qarabağdakı qondarma qurumla Ermənistanı birləşdirən yeganə böyük (digərləri ilə müqayisədə) magistral yol idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, döyüş sursatı və ehtiyatlarının qarşısını aldı. Azərbaycan ənənəvi olaraq gün ərzində hərbi karvanların qarşısını almaq üçün artilleriya, minaatan və hətta birbaşa atəş və ya idarəolunan raketlərlə Ermənistan ordusuna zərbələr endirdi. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad olundu və Azərbaycanın hərbi üstünlüyü sayəsində düşmən əzilərək məhv edildi, tarixi ədalət öz yerini tutdu. Vətən müharibəsində mərmilərin şırım açdığı, düşmənin xarabalığa çevirdiyi, igid oğullarımızın qanı tökülən torpaqda tarixi ədalətin, qələbənin, inkişafın, quruculuğun və şərəfli qayıdışın simvoluna çevrilən Ağalıda, Suqovuşanda, Cocuq Mərcanlıda, Laçında, Zabuxda, Füzulidə, Şuşada, işğaldan azad edilən bütün yurd yerlərində yeni həyat başlayıb. Vaxtilə göz yaşları içərisində tərk etdikləri ata-baba yurdlarına insanlar indi sevinclə, qürurla, şükranlıqla, hədsiz minnətdarlıqla qayıdırlar. Ağır müharibədən sonra azad edilən torpaqlarda aparılan genişmiqyaslı quruculuq işləri Azərbaycan tarixinin şanlı, qürurlu, qəhrəmanlıq və davamlı inkişaf tarixinin ilk dəyərli mənasına, qətiyyətli sözünə, gücümüzün, qüdrətimizin, bir xalq olaraq birliyimizin çağdaş bir səhifəsinə çevrilib.

## Xüsusi Təyinatlı Qüvvələr

Xüsusi Təyinatlı Qüvvələrin tarixinə nəzər salanda bir daha aydın olur ki, qısa zaman kəsiyində Azərbaycanda elitar və peşəkar ordu hissələri yaradılıb. 1999-cu ilin aprel ayında Müdafiə Nazirliyinin nəzdində ilk xüsusi təyinatlı dəstələr qurulub. Dəstələrin yaradılmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak edib. İllər keçdikcə Xüsusi Təyinatlı Qüvvələr təkmilləşdirilib. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin formalaşmasında qardaş Türkiyə hərbçilərinin əməyi çox olub. 2020-ci ilin iyun ayında isə yeni xüsusi təyinatlı birlik yaradılıb. İstər quruda, istər havada, istərsə də suda Azərbaycan xüsusi təyinatlıları yüksək döyüş qabiliyyətinə malikdir. Xüsusi təyinatlıların şüarı belədir: sədaqətim şərəfimdir! Qəhrəman xüsusi təyinatlılarımız İraq, Əfqanıstan müharibələrində, dünyadakı münaqişə zonalarında sülh yaratma missiyasında şərəflə iştirak ediblər. İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti Cəbrayıl şəhərini və ətrafdakı doqquz kəndi işğaldan azad edib.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi və apardığı uğurlu ordu quruculuğu siyasəti Vətən müharibəsində qələbənin əsasını təşkil edib. Üstəgəl, mükəmməl hərbi kadr potensialının formalaşması, müasir hərbi silahlanma - bir sözlə, sarsılmaz hərbi qüdrətimiz, xüsusilə ciddi nizam-intizam, ordunun tam püxtələşməsi, zabit və əsgərlərimizin həm psixoloji, həm də döyüş hazırlığının yüksək səviyyədə olması şanlı Qələbəni xalqımıza yaşatdı. Vətən müharibəsində xüsusi təyinatlılar keçilməz sədləri aşıb, dağları, dərələri keçərək düşmənə sarsıdıcı zərbələr endirib. Dəstənin hər bir üzvü qəhrəmanlıq və cəsurluq nümayiş etdirib. Onlar qorxu nə olduğunu bilməyiblər. Şuşa şəhərini işğalçılardan azad edən xüsusi təyinatlı qüvvələrin qəhrəmanlığı düşməni şoka saldı, xalqımıza isə sonsuz sevinc bəxş etdi. Bu Vətən, bu xalq Sizə minnətdardır!

## Hərbi Hava Qüvvələri

Vətən səmasının qəhrəman keşikçiləri, onların gözündən heç nə yayına bilməz, şahin pilotlarımız Vətən müharibəsində əsl şücaət göstərdilər. Onlar daha çox "Qarabağ mücrüsü" adlı əməliyyat planı ilə tanınırlar. Hansı ki, həmin plan 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu çaş-baş saldı, uğurlu taktika şanlı Zəfərin əldə edilməsində böyük rol oynadı. Pilotlar və texniki heyət yalnız Qələbəyə köklənərək öz xidməti borcunu böyük peşəkarlıqla yerinə yetirdilər. Əslində, bunun təməlində illərdən bəri aparılan islahatlar, keçirilən təlim uçuşları dayanırdı. Təlimdə tökülən tər, döyüşdə Zəfərə gətirib çıxardı. Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının artırılmasına, müasir silahlarla təchiz edilməsinə müharibədən sonra da Qalib Ali Baş Komandan tərəfindən xüsusi diqqət yetirilir. Yeni tip təyyarələr, hava hücumundan müdafiə sistemləri, PUA-lar alınır. Təlimlər, pilotların uçuş saatları artırılır. 106 illik tarixə malik Silahlı Qüvvələrimizin xüsusi qoşun növü olan Hərbi Hava Qüvvələrinin "gözəgörünməz qəhrəmanlar"ı - səma şahinləri şanlı tarix yaratdı. Zəfər salnaməmizə qəhrəmanlıq və şücaət nümunələri ilə adlarını yazdıran HHQ-nin hərbi qulluqçuları arasında ən uca zirvəyə - şəhidlik mərtəbəsinə yüksələn 5 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü.

## Onlardan xəbərsiz meh də əsə bilməz...

Onlar qəflətən peyda olaraq düşmənin düz gözünün içinə baxıblar, üzbəüz döyüşdə mənfur düşməni diz çökməyə vadar ediblər. Vətən müharibəsi dövründə "qara paltarlılar"ın düşməni lərzəyə salan qəhrəmanlığı heç zaman unudulmayacaq. Düşmənin kabusuna çevrilən döyüşçülərimiz Hərbi Dəniz Qüvvələrinin (HDQ) xüsusi təyinatlılarıdır. Addımları ilə ölümü düşmənin kürəyində hiss etdirən Dəniz Xüsusi Təyinatlıları 44 gün ərzində ən çətin hərbi əməliyyatları yüksək peşəkarlıqla yerinə yetiriblər. Haqq savaşının xüsusilə 37-ci günündə həyata keçirdikləri məşhur Qızılqaya əməliyyatı ilə müharibəyə öz möhürlərini vurublar. Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları demək olar ki, müharibənin ilk günlərindən tam hazır vəziyyətdə döyüş bölgələrinə təxliyə olunduqdan sonra Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Füzuli, Cəbrayıl istiqamətlərində, həmçinin Arazboyu ərazilərdə döyüşlər aparıb, Qubadlının, Qızılqaya yüksəkliyinin azad olunması kimi çətin tapşırıqları vaxtında və uğurla yerinə yetiriblər. Xudafərin Su Anbarına bayraq sancaraq aidiyyəti üzrə digər qoşunların bölmələrinə təhvil veriblər. Qubadlını azad etdikdən sonra Ali Baş Komandana məruzə edilməsi xalqımıza böyük qürur bəxş etdi. Hərbi Dəniz Qüvvələri düşmənin Azərbaycan ərazisinə qarşı hər hansı bir suüstü, sualtı, quru fəaliyyətlərini göstərməsinin qarşısını almağa tam şəkildə hazırdır və qadirdir.

## Komandolar

Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ərəfəsində növbəti komando hərbi hissəsinin açılışında deyib ki, onun tapşırığı ilə İkinci Qarabağ müharibəsindən sonra Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılıb və komandoların sayı gündən-günə artır. Azərbaycan ötən ilin sentyabrında Ermənistanla sərhəddə və həmin ilin avqustunda Qarabağdakı Rusiya sülhməramlılarının nəzarət zonasındakı döyüşlərdə yeni formalaşan komando qüvvələrindən istifadə edib. Azərbaycan hərbi analitikləri deyirlər ki, Azərbaycan ordusu Türkiyə modelində qurulur və yeni komando qüvvələri Türkiyədə təlim keçərək formalaşdırılır. Artıq komando təlimləri Azərbaycanın özündə də aparılır. 2021-ci ilin iyulunda Komando Ordu birliyi yaradılıb, Qarabağda və Ermənistanla sərhədə yaxın ərazilərdə dörd komando hərbi hissəsi fəaliyyət göstərir. İkinci Qarabağ müharibəsindən sonra Qırxqız, Sarıbaba, Buzluq və bir sıra adsız yüksəkliklərin ələ keçirilməsində, Laçının Sus və Zabux kəndlərinin azad edilməsində, həmçinin sərhəddəki son sentyabr döyüşlərində komando hissələri fədakarlıq göstəriblər. Hərbi təhlilçilərin qənaətinə görə, komandolardan bu döyüşlərdə geniş miqyasda, uğurla istifadə olunub, onlar öz imkan və potensiallarını nümayiş etdiriblər. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, ilk dəfə 2009-cu ildə hərbçilərimiz Türkiyəyə komando təhsili almağa göndərilib, qayıtdıqdan sonra onlar müxtəlif birliklərin kəşfiyyat hissələrinə təyin ediliblər. Komandolar çətin iqlim, relyef şəraitində və əlverişsiz hava şəraitində də hərbi əməliyyatlar aparmaq üçün xüsusi hazırlanmış hərbçilərdir. Onlar xidmət etdikləri yerlərdə düşmən arxasına keçmək, pusqu, basqın, taktiki hücum, kəşfiyyat, izləmə kimi çox çətin və riskli vəzifələri icra edirlər. Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsi zamanı Türkiyə ordusunun "kiçik modelini" quracaqlarını anons etmişdi və qürurla deyə bilərik ki, komando qüvvələri qardaş Türkiyə ordusunun bir parçasıdır.

## Müasir hərbi texnikalar

Bu gün öz gücü, qüdrəti, imkanları, döyüş əzmi, mənəvi ruhu, təminatı, təchizatı, ən müasir döyüş vasitələrinə görə dünyanın 50 güclü ordusu sırasında özünə layiqli yer tutan Silahlı Qüvvələrin hərbi arsenalı daha da artırılır. Hərbi şərhçilərin fikrincə, ən əsası bütün texnika və silahlardan peşəkarlıqla, bacarıqla, inamla, effektiv istifadəyə qadir olan Azərbaycan hərbçiləri hazırlanıb. Ordumuz hər an düşmənlə döyüşə hazır və qadirdir. Bu gün ordumuzun gücü, imkanı, döyüş texnikası, peşəkarlığı, mənəvi-psixoloji hazırlığı və döyüş əzmi çox yüksəkdir. Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissəsində keçirilən görüş zamanı bildirib ki, Azərbaycan Ordusunun modern hərbi texnika ilə təchizatı prosesi davam etdirilir. Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili Qoşunların, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin xüsusi təyinatlı qüvvələrinin imkanları artırılıb. Dəniz piyadalarının tərkibi genişləndirilib. Bir sözlə, Azərbaycan Silahlı Qüvvələri ölkənin təhlükəsizliyinə təhdid yarada biləcək istənilən qüvvəyə sarsıdıcı zərbələr endirə bilmək gücünə gətirilib. Azərbaycan Ordusunu üstün mövqeyə çıxaran amillərdən biri də yüksək vətənpərvərlik ruhu, psixoloji hazırlıqdır. Bu barədə Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib: "Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır". Dünyanın hərbi analitikləri qəhrəman Silahlı Qüvvələrimizin İkinci Qarabağ müharibəsində tətbiq etdiyi taktikaları öyrənməklə məşğuldurlar, araşdırmalar aparırlar. Ey Şanlı Ordu, bütün türk dünyası sizinlə fəxr edir!

**Salman ALIOĞLU,**
**"Respublika".**